# "Şahin" hərbi-idman oyunu üzrə rayon birinciliyi

*Qəbələ Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Qəbələ şəhər 2 nömrəli tam orta məktəbdə gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsində, onların fiziki hazırlıqlarının artırılmasında, ordu sıralarına hazırlanmasında mühüm rol oynayan "Şahin" hərbi-idman oyunu üzrə rayon birinciliyi keçirilmişdir.*



Yarışın açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək "Şahin" hərbi-idman oyununun keçirilməsində məqsədin məktəblilər arasında aparılan hərbi vətənpərvərlik tərbiyəsi işini daha da gücləndirmək, orta məktəb şagirdlərinin hərbi-idman oyunlarına maraqlarını artırmaqla onların ordu sıralarında xidmətə hazırlığını inkişaf etdirməkdən ibarət olduğunu bildirdi. Fəxri Soltanov "Şahin" hərbi-idman oyunu üzrə məktəbdaxili seçmə yarışların artıq yekunlaşdığını, bu gün oyunların ikinci mərhələsi olan rayon birinciliyinin keçirildiyini qeyd etdi.

Rayonun tam orta məktəblərinin VIII-X sinif şagirdlərindən ibarət 20 komandanın iştirak etdiyi yarış gərgin idman mübarizəsi şəraitində keçmişdir. Yarışın əsasnaməsinə uyğun olaraq sıra hazırlığı mərhələsi başa çatdıqdan sonra komandalar estafet mərhələsində mübarizələrini davam etdirmişlər.

Yarışın nəticəsinə əsasən Zarağan kənd 2 nömrəli tam orta məktəbin komandası I yeri, Qəbələ şəhər 1 nömrəli tam orta məktəbin komandası II yeri və Qəbələ şəhər 2 nömrəli tam orta məktəbin komandası III yeri tutmuşdur. Qalib komandalara gənclər və idman idarəsinin diplomları təqdim edilmişdir.

Şəmkir rayonunda keçiriləcək zona yarışında rayonumuzu Zarağan kənd 2 nömrəli tam orta məktəbin komandası təmsil edəcəkdir.

**✍ Məhəmmədəli Səfərçinov, gənclər və idman idarəsinin baş məsləhətçisi.**

# «Bahar təranələri»

Qəbələ şəhər inzibati ərazi nümayəndəliyinin dəstəyi ilə Heydər Əliyev adına parkda «Bahar təranələri» adlı konsert təşkil olunmuşdur. Konsertin təşkilində məqsəd parka istirahətə gələnlərin asudə vaxtlarının səmərəli keçməsinə yardımçı olmaq, onlara xoş byram ovqatı bəxş etmək olmuşdur.

Elvin Mahmudovun təşkilatçılığı və rəhbərliyilə stedadlı gənclərdən ibarət «Şur» instrumental qrupunun iştirakı etdiyi həmin konsertdə ifaçılardan Orxan Əliyev, Fəqan Eyvazov, Tural Seyidov və başqaları bahar əhval-ruhiyyəli musiqi proqramı ilə çıxış etmişlər. İki saatdan çox davam edən konsert tamaşaçılar tərəfindən böyük maraq və razılıq hissi ilə qarşılanmışdır.

***«Qəbələ».***

# Tibbi müayinələr davam etdirilir



Qəbələdə əhalinin tibbi müayinədən keçirilməsi uğurla davam etdirilir.

Yüksək ixtisaslı həkimlər tərəfindən vətəndaşlar qabaqcadan tərtib olunmuş qrafik əsasında müayinə edilir, zərurət olduqda onlar müalicəyə cəlb olunurlar.

Fevral ayının 15-dən, bu günədək səhiyyə ocaqlarında keçirilən aksiya zamanı 26819 vətəndaş tibbi müayinə olunub. Müayinələrdən sonra 425 nəfər stasionar, 903 nəfər ambulator müalicəyə cəlb edilib, 126 nəfər isə müalicə üçün Bakı şəhərinə ixtisaslaşdırılmış klinikalara göndərilib.

Aksiyanın səmərəliliyini artırmaq üçün əhali arasında təbliğat işi davam etdirilir.

***«Qəbələ».***

# 18 Aprel Tarixi Abidələrin Mühafizəsi Günüdür

*18 Aprel YUNESKO-nun abidələrin və diqqətəlayiq yerlərin mühafizəsi məsələləri üzrə Beynəlxalq Şurasının 1983-cü ildə qəbul edilmiş qərarı əsasında Tarixi Abidələrin Mühafizəsi Günü kimi qeyd olunur. Məqsəd dünya icitmaiyyətinin diqqətini maddi-mədəniyyət abidələrinin qorunmasına yönəltməkdir.*

Tarixi abidələr—məqbərələr, saraylar, məbədlər, məscidlər, qəbiristanlıqlar, körpülər, ovdanlar, günbəzlər, minarələr və s. tarixi keçmişimizin maddi yadigarlarıdır. Onlar zamanın sərt sınaqlarına sinə gərərək bu günümüzə gəlib çatmışlar. Hər bir xalqın, ölkənin tarixinin qədimliyi onun maddi-mədəniyyət yadigarlarının çoxluğu və qədimliyi ilə ölçülür. Qobustan, Gəmiqaya, İstisu qayaüstü təsvirləri, Çıraqqala, Oğlanqala, Cavanşir, Gülüstan, Əlincə, Buğurd, Gələrsən-Görərsən, Əskəran kimi qalalarımız, Möminə xatın, Yusif ibn Küseyr, Olcaytu Xudabəndə kimi məqbərələrimiz, Göy məscid, Şah Abbas məscidi, Gövhərağa məscidi, Cümə məscidi, Təzəpir məscidi kimi dini ibadətgahlarımız, Həşt behişt, Şirvanşahlar, İrəvan sərdar sarayı, Şəki xan sarayı kimi nadir memarlıq abidələrimiz bu qəbildəndirlər.



Hazırda işğal altında olan dünya əhəmiyyətli mədəni-tarixi abidələrimiz - Azıx və Tağlar mağaraları dünyanın ən qədim insan yaşayan məskənlərindəndir. YUNESKO-nun siyahısına düşmüş bu mağaralardan tapılmış maddi mədəniyyət nümunələri hələ 1981-ci ildə Parisin İnsan muzeyində "Avropanın ilk sakinləri" adlı sərgidə nümayiş etdirilmişdi.

Bir çox ölkələrdə tarixi abidələrin qorunması işi çox ciddi təşkil olunmuşdur. Məsələn, Fransada hətta arxeoloji qazıntılar aparıldıqdan sonra tarixi yerlərin təbii landşaftı olduğu kimi bərpa olunur. Böyük Britaniyanın şimalında da Roma imperatoru Adrianın dövründə imperiyanın sərhədlərini qorumaq məqsədilə çəkilmiş məşhur Adrian sədləri olduğu kimi qorunub saxlanır.

Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan hökuməti arasında imzalanmış "Mədəni irsin qorunmasına yardım haqqında" sazişə uyğun olaraq, Bakıda Şirvanşahlar saray-kompleksində, Naxçıvanda Möminə Xatın və Qarabağlar türbələrində, Şəki xanlarının sarayında bərpa və yenidənqurma işləri aparılmışdır. 2002-ci ildə Respublikamız Abidələrin Bərpası və Tədqiqi Beynəlxalq mərkəzinə üzv qəbul olunmuşdur. Azərbaycan tarixində ilk dəfə olaraq Şirvanşahlar saray-kompleksi və Qız qalası da daxil olmaqla İçərişəhər Dövlət Tarixi-memarlıq kompleksi YUNESKO-nun "Dünya mədəniyyəti irsi" siyahısına daxil edilmişdir.

**"Qəbələ".**

# Qəbələ-abidələr beşiyi

***Azərbaycan mədəniyyətinin, incəsənətinin çiçəklənməsi və inkişaf etməsi, dünya miqyasında tanınması, tarix və mədəniyyət abidələrimizin göz bəbəyi kimi mühafizəsi sahəsində ümummilli liderimiz Heydər Əliyevin böyük əməyi olmuşdur.***

1970-ci illərdə Qəbələ RLS-na elektrik xətlərinin çəkilməsi zamanı qədim Qəbələ qalası ərazisinə iri həcmli elektrik qurğularının basdırılması tariximizin qədimliyinin və möhtəşəmliyinin sübutu olan abidənin məhv olmasına cətirib çıxara bilərdi. Heydər Əliyev 2500 illik tarixi olan qədim Qəbələ qalasını elə həmin illərdə məhv olmaq təhlükəsindən qurtardı. Tarixi baxımdan qanuna zidd olan bu planın gerçəkləşməsinə yol vermədi. Bununla da bu gün dünyanın hər yerindən gələn qonaqların böyük maraqla görməyə can atdığı qədim Qəbələ qalası, digər tarixi ətraf ərazilər məhv olmaqdan xilas edildi.



Qərinələr, yüzilliklər görmüş tarixi abidələrimizə belə münasibət bu gün hər bir azərbaycanlının mənəvi borcudur. Tarix və mədəniyyət abidələrinin mühafizəsi, onların qorunması və gələcək nəsillərə çatdırılması daim diqqət mərkəzində olmalıdır.

Bu baxımdan Qəbələ rayonunu tarixi abidələr beşiyi adlandırsaq səhv etmərik. Burada yüzə yaxın tarix və mədəniyyət abidəsi vardır. Buna misal olaraq qədim Qəbələ şəhərinin ərazisində "Qala divarları", Soltanuxa kəndi yaxınlığında "Kilsədağ məbədi", Vəndam qəsəbəsində "Hacıqaraman körpüsü", "Mirzəli evi", "Karvansara", Həzrə kəndində "Türbələr kompleksi", Bum qəsəbəsində "Cümə məscidi" (1887), "Govur qalası" (VII-IX-əsr), "Karvansara" (XIX əsrin ortaları), Nic qəsəbəsində "Yaloylutəpə", "Hacı Qərib məscidi", "Bolubəyin evi", "Çotari" udi-alban kilsəsi, Qəbələnin mərkəzində keçmiş "Hamam" binasının qalıqları (IX-XI əsr), "Səkkizgüşəli məscid" və indiki "Cümə məscidi"ni göstərmək olar.

Bildiyimiz kimi muzey xalqın tarixinin mütəlif dövrərinə dair maddi-mədəniyyət nümunələrinin qorunub saxlandığı və təbliğ edildiyi elmi müəssisədir. Burada tarix və mədəniyyət abidələrinin, milli sərvətlərimizin qeydiyyatı aparılır, mühafizə edilir. Ona görə də hər bir abidəni, milli dəyəri olan sərvətləri göz bəbəyi kimi qorumaq muzey işçilərinin borcudur. Burada məhv olmaq qarşısında qalan maddi nümunələr toplanılır, tədqiq və nümayiş etdirilir.

Çünki hər bir xalq öz mədəniyyəti ilə tanınır. Bu gün xalqın mədəniyyəti intellektual səviyyəsi, estetik əxlaqi münasibətləri cəmiyyətdə əsas yer tutmalıdır. Unudulmamalıdır ki, abidələr xalqın tarixini əks etdirən güzgüdür.

**Qəbələ Tarix-Diyarşünaslıq Muzeyi**